Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

Layihənin istiqaməti: "İctimai və dövlət maraqları"

## Masallıda 30-dan çox uşaq günərzi xidmətlərlə təmin edilir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial sifarişi ilə "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyi tərəfindən Masallı rayonunda yaradılan günərzi qayğı mərkəzinə 30-dan çox uşaq cəlb edilib.**

Onlar aztəminatlı ailələrdən olan, çətin həyat şəraitində yaşayan, o cümlədən sağlamlıq imkanları məhdud uşaqlardır. 2018-ci ildən yaradılan mərkəzdə uşaqların maraq və qabiliyyətləri nəzərə alınaraq, müxtəlif dərnəklər vasitəsilə onların bacarıq və təxəyyülləri inkişaf etdirilir. Onlara ev tapşırıqlarının hazırlanmasında köməklik göstərilir, həmçinin psixoloji dəstək həyata keçirilir.

Həmçinin sağlamlıq imkanları məhdud uşaqlarda zəruri özünəxidmət vərdişləri yaradılır. Uşaqların asudə vaxtının səmərəli təşkili məqsədilə müxtəlif tədbirlər, ekskursiyalar da təşkil olunur.

# Heydər Əliyev Fondu ilə UNİSEF arasında Anlaşma Memorandumu imzalanıb

**Oktyabrın 18-də Heydər Əliyev Fondu ilə BMT-nın Uşaq Fondu (UNİSEF) arasında Anlaşma Memorandumu imzalanıb.**




Trend-in məlumatına görə, imzalanma mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və UNİSEF-in Azərbaycandakı nümayəndəsi Edvard Karvardin iştirak ediblər.

Memorandum 2020-ci ilin sonunadək inklüzivlik və erkən uşaqlıq dövrünün inkişafı sahəsində müxtəlif layihələrin həyata keçirilməsini nəzərdə tutur. Əməkdaşlıq çərçivəsində bu sahədə valideynlərin təhsil və təcrübələrini dəstəkləyən proqramların reallaşdırılması, ictimai maarifləndirmənin artırılması planlaşdırılır.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Fondun təhsil, səhiyyə və sosial sahələrdə həyata keçirdiyi layihələr barədə danışaraq, fiziki imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası, uşaqların sağlamlığı və təhsili sahəsində Fondla UNİSEF arasında mövcud əməkdaşlıq barədə məlumat verib. Qeyd olunub ki, imzalanan Memorandum bu əməkdaşlığın genişləndirilməsinə yeni imkanlar yaradacaq.

Memorandum çərçivəsində Heydər Əliyev Fondu, "Regional İnkişaf" İctimai Birliyi və UNİSEF-in birgə dəstəyi ilə uşaqların məktəbəqədər dövrdə sağlamlığı, müxtəlif bacarıqlarının inkişafı üzrə layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

İmzalanma mərasimindən sonra qonaqlar Mərkəzdə "Live Life" ("Canlı həyat") sərgisi ilə tanış olublar. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə təşkil olunan sərgi ətraf mühit problemlərinə, təbiətin qorunmasına diqqət çəkmək və incəsənətin bu sahədə rolu barədə ictimaiyyəti maarifləndirmək məqsədi daşıyır. Ekspozisiya London, Paris, Berlin, Moskva və Tbilisidə nümayişdən sonra Bakıya gətirilib.